*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 85-89*

https://doi.org/10.62837/2026.4.85

**NƏRMIN QOCAYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
**qocayeva.nermin1991@gmail.com**

# MÜSTƏQİLLİK DÖVRÜ UŞAQ ƏDƏBİYYATINDA UYDURMA TOPONİMLƏR

**Xülasə**

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı ideya-məzmun, janr və üslub baxımından mühüm yenilənmə mərhələsi kimi səciyyələnir. Bu proses uşaq ədəbiyyatında da öz əksini tapmış, milli-mənəvi dəyərlərin, azad düşüncənin və yaradıcılıq təxəyyülünün ön plana çəkilməsinə şərait yaratmışdır. Xüsusilə bədii mətnlərdə dil və üslub imkanlarının genişlənməsi, obrazlılığın güclənməsi fonunda onomastik vahidlərin, o cümlədən uydurma toponimlərin işlənməsi diqqəti cəlb edir. Uydurma toponimlər uşaq ədəbiyyatında yalnız məkan bildirən vasitə kimi deyil, həm də mətnin ideya-estetik yükünü artıran, fantaziya dünyasını zənginləşdirən mühüm bədii elementlərdən biri kimi çıxış edir. Bu cür toponimlər vasitəsilə müəlliflər uşaqların təxəyyülünü inkişaf etdirir, onları real və qeyri-real aləmlər arasında sərbəst düşünməyə təşviq edirlər. Məqalədə müstəqillik dövrü Azərbaycan uşaq ədəbiyyatında uydurma toponimlərin semantik, funksional və üslubi xüsusiyyətlərinin araşdırılması qarşıya məqsəd qoyulmuşdur. Araşdırma zamanı seçilmiş bədii nümunələr əsasında uydurma toponimlərin uşaqlar üçün nəzərdə tutulan mətnlərdə hansı ideya-estetik funksiyanı yerinə yetirdiyi elmi baxımdan təhlil edilir.

***Açar sözlər:*** *müstəqillik dövrü, uşaq ədəbiyyatı, bədii mətn, uydurma toponimlər, bədii təxəyyül.*

**Giriş.** Toponimlər yer adları bildirməklə yanaşı müxtəlif üslubi məqsədlərə xidmət edir. "*Bədii üslubda işlənən toponimik vahidlər əlavə "estetik funksiya" və "üslubi yük" daşıyır, həmçinin digər bədii məqsədlərə xidmət göstərir. Yəni, bədii dildə üslubi yükün ağırlığı digər leksik vahidlər kimi, toponimik vahidlərin də üzərinə düşür. Sanki toponimik vahidlər üslubi baxımdan "yüklənir", əlavə "estetik funksiyanı" öz üzərinə götürmüş olur*" [3, s.24].

Uşaq ədəbiyyatında məkan anlayışı bədii təsvirin əsas komponentlərindən biridir. Bu məkan çox zaman real coğrafi adlarla deyil, müəllif tərəfindən yaradılmış uydurma toponimlərlə təqdim olunur. Uydurma toponimlər uşağın təxəyyül dünyasına uyğun olaraq sadə, ahəngdar və emosional yüklü olur. Onlar yalnız məkan göstərmək məqsədi daşımır, həm də bədii ideyanın formalaşmasında, obrazların xarakteristikasında mühüm rol oynayır. müstəqillik dövrü uşaq yazıçıları da real toponimlərlə yanaşı, özlərinin yaratdığı uydurma adlardan da istifadə edirlər.

Uydurma toponimlər real coğrafi xəritədə mövcud olmayan, lakin bədii mətn daxilində məkan funksiyasını yerinə yetirən bədii, simvolik və ya alleqorik məqsədlə yaradılan yer adlarıdır. Ən çox folklorda, nağıllarda, satirik və fantastik əsərlərdə işlədilir. Uydurma məkan adları uşağın təxəyyülünü genişləndirir və real dünya ilə nağıl aləmi arasında sərhədi aradan qaldırır. O cümlədən, uşağın mətnə emosional bağlanmasını gücləndirir və dilin yaradıcılıq imkanlarını nümayiş etdirir. Real toponimlər bəzən uşaqlar üçün mürəkkəb və yad səslənə bilər. Uydurma adlar isə fonetik baxımdan asan qavranılır.

**Uydurma toponimlərin semantik xüsusiyyətləri.** Müstəqillik dövrü Azərbaycan nəsrində uydurma toponimlərə aşağıdakıları nümunə göstərmək olar: "Axça göz işlədikcə uzanıb gedən *Qar dənizinə* baxıb sevinirdi" [5, s.40]. Nümunədə işlənən "Qar" sözü ağlıq, saflıq, sakitlik və soyuqluq assosiasiyası yaradır. Məkanın sonsuzluğunu, nağılvari və romantik təsirini gücləndirir. "Adı Zuzudur, ancaq bu, adi oyuncaq deyil, sehirlidir. Oyuncaqlarla yaxşı davransan, onları qırmasan, Zuzu istədiyin vaxt səni *Xoşbəxt Uşaqlar Planetinə* aparar....Əks halda Zuzu səni *Pis Uşaqlar Planetinə* aparacaq. Orada da səni dəhşətli günlər gözləyir" [4, s.8]. Pis Uşaqlar Planeti oxucuda qorxu və məsuliyyət hissi oyadır. Uşaqlara yaxşı və pis davranışın nəticəsini göstərmək, didaktik mesaj vermək məqsədi daşıyır. "İlk dəfə Aysel bu sözü oxudu: *"Tərs adamlar ölkəsi"* [5, s.287]. Yaxşı davranışın mükafatlandığı ideal məkanı simvolizə edir. Uşaqlara mənəvi mesaj verir (yaxşılıq → xoşbəxtlik). "Onu *Ağcaqanad dərəsinin* (bu adı orada yaşayanlar qoymuşdular, sonralar bu küçəyə "8 mart" adı verilmişdi) ilk sakinlərindən hesab etmək olardı" [1, s.129]. Fantastik, yumorlu təsir yaradır. Oxucuda məkan haqqında təsəvvür formalaşdırır. "Bir dəfə Biləndər *"Atalar sözü" şəhərinə* gedib çıxdı" [5, s.337]. *"Cırtdanlar ölkəsindən* Çiçəyə qoşulub gələn Orxan Çiçəyin qanının necə qaraldığını gördü ..."[6, s.396]. "Cırtdan" sözü Azərbaycan nağıl ənənəsində kiçik, lakin cəsur və zirək qəhrəman obrazı ilə assosiasiya olunur. "Cırtdanlar ölkəsi" ifadəsi kollektiv obraz yaradır və mətnə yumor, səmimilik və istilik çaları qatır. Toponim simvolik xarakter daşıyır. O, bəzən uşaqlar aləmini, saf və təmiz dünyanı, yaxud kiçiklərin böyük ideallarını təmsil edir. Beləliklə, yazıçının ideyasının dolayı şəkildə çatdırılmasına xidmət edir. "Cırtdan" obrazı Azərbaycan folkloruna bağlı olduğundan, bu toponim milli kolorit yaradır və mətni xalq ədəbiyyatı ənənəsi ilə əlaqələndirir. Bu toponimi sadəcə məkan adı deyil, bədii mətnin obrazlılığını, emosional yükünü və ideya istiqamətini gücləndirən mühüm üslubi vasitədir. Bəzən yazıçılar üslubi məqsədlər üçün heyvan adları ilə yaranan toponimlərdən də istifadə edirlər: "Axı ömrümdə *İt şəhəri* görməmişəm. Biz buranın adını *Köpəklər şəhəri* qoymalıyıq....Küçüklər zingildəşib bir-birinə qarışdı. Onların qarışıq səsində yalnız bunu eşitmək olardı: *Küçük şəhəri.* Yəni ki bu şəhərin adı gərək *Küçüklər şəhəri* olsun"[5, s.176]. Belə adlar vasitəsilə müəllif dolayısı ilə müəyyən davranışları xarakterizə edir. Məsələn, səs-küylü, qarışıq və ya qaydasız mühit simvolik şəkildə

"Köpəklər şəhəri" kimi təqdim edilir. "Keşikçi dedi: - Bura *Müdriklər şəhəridir*. İçəri girmək üçün sualımıza cavab verməlisiniz. Yoxsa qapılar əsla açılmaz!" [7, s.66]. "Müdriklər" komponenti bilik, ağıl və düşüncə ilə bağlı assosiasiya yaradır. Şəhərə daxil olmaq üçün suala cavab vermək şərti uşağa öyrədir ki, bilik və zəka uğurun açarıdır. Bu toponim maarifləndirici və motivasiyaedici funksiyanı yerinə yetirir. "Bir var idi, biri yox idi. "*Neptun"* adlı bir diyar var idi" 2, s.126]. "Qız qalası *Yel kürəsinin* müqəddəratında önəmli rol oynayacaqdı"[2, s.6]. Neptun qədim mifologiyada dəniz tanrısı kimi tanınır. Toponim vasitəsilə müəllif dəniz, su, sərgüzəşt və sirr kimi simvolik anlamlar yarada bilər. "Gecə hamı yuxudaykən hücum edib *Qız qalası* və *İçərişəhər* başda olmaqla bütün Bakını, nəhəng *Yel kürəsini* ələ keçirməyi planlaşdırırdı"[2, s.15]. Yazıçı "Qız qalası" tikilməzdən qabaqkı, daha qədim keçmişdəki toponimləri izah etmək üçün yazır: "Külək gözlərini *Yel kürəsində* açdı. *İçərişəhərdə* idi...Nəhayət, şahzadə gəzə-gəzə böyük Dəyirmana gəlib çıxdı. Aman Allah! Qız qalası yerində yox idi. Onun yerində əvvəllər olduğu kimi köhnə dəyirman ucalırdı. "Deməli,fikrimdə tutduğumdan daha keçmişə gəlib çıxmışam, – Külək ağlından keçirdi"[2, s.111]. Yazıçılar bəzən elə uydurma ad yaradırlar ki, çox uğurlu alınır. Belə ki, xüsusilə uşaq ədəbiyyatında iki oxşar sözün bir-birindən fərqləndirilməsi məqsədilə mətndə bir səs fərqi ilə iki toponimin işlənməsi yazıçının tapdığı gözəl nailiyyətdir və bunlar bir-biri ilə *paronimlik* yaradır. Məsələn: "*Yer* kürəsinin peyki olan Ay bəyaz işıq saçırdı. *Yel kürəsinin* Ayı isə gecələr öz planetini mavi ilə bəyaın qarışığı olan kədərli bir işıq selinə qərq edirdi" [2, s.85]. "Bu külək o qədər güclü idi ki, onun əks-sədası Yel kürəsini aşaraq Yer kürəsinə qədər gəlib çıxdı və insan övladına məskən olan mavi planeti də cənginə aldı"[2, s.57]. "Teyanın atdığı addımdan sonra isə *Yel və Yer* torpaqları getdikcə daha çox bənzəməyə başlamışdı"[2, s.85].

Bədii mətnlərdə istifadə olunan toponimlər düşüncənin obrazlı şəkildə ifadəsinə və müəllif mövqeyinin açılmasına xidmət edir. Yazıçı öz ideyasını oxucuya daha aydın və təsirli çatdırmaq, eyni zamanda üslubi çalarlar yaratmaq üçün geniş dünyagörüşünə malik olmalı və dilin zəngin ifadə imkanlarından bacarıqla yararlanmalıdır. "Bədii əsərlərdə toponimik vahidlərin üslubi funksiya daşıması, hər şeydən öncə, yazıçının xalq dilindən necə istifadə etməsindən, üslubun xəlqi keyfiyyətindən və dünyagörüşün genişliyindən, zənginliyindən də asılıdır"[8, **s** 11].

**Nəticə.** Bu dövrdə yaradılan fantaziya xarakterli məkan adları müəllifin dünyagörüşünü, milli-mənəvi dəyərlərə münasibətini və uşağın təxəyyül dünyasını formalaşdırmaq məqsədini əks etdirir. Araşdırma göstərir ki, uydurma toponimlər bir tərəfdən folklor ənənələri və mifoloji təsəvvürlərlə bağlılıq yaradır, digər tərəfdən isə müasir reallıqların simvolik ifadəsinə çevrilir. Onlar əsərin süjet xəttinin inkişafına xidmət edir, qəhrəmanların xarakterini tamamlayır və oxucunun emosional-estetik qavrayışını gücləndirir. Müstəqillik mərhələsində formalaşan bu tip toponimlər milli kimlik, vətənpərvərlik və azadlıq ideyalarının bədii təqdimində də əhəmiyyətli rol

oynayır. Eyni zamanda, onların dil quruluşu və semantik xüsusiyyətləri Azərbaycan dilinin yaradıcılıq potensialını və söz yaradıcılığı imkanlarını nümayiş etdirir. Beləliklə, müstəqillik dövrü uşaq ədəbiyyatında uydurma toponimlər həm onomastik, həm də ədəbi-estetik baxımdan tədqiqi zəruri olan aktual sahədir və gələcək araşdırmalar üçün geniş perspektivlər açır.

## Ədəbiyyat

1. Azərbaycan jurnalı. Müzahim İsmayılzadə. Ağcaqanad dərəsi, s.129. Az.jurnalı, 2019-4.
2. Cəfərova X. Külək Yel kürəsinin şahzadəsi.I kitab.TEAS Press Nəşriyyat evi, 2018, s.85
3.Əliyeva D., İsmixanova G., Hüseynov Ş. Onomastik vahidlərin üslubi imkanları, Mütərcim, 2012, 92 s.
4. Haqverdiyev V. Müasir nağıllar. Bakı, "Nafta -Press" nəşriyyatı, 2017, 72 s Xəlil.Z. Seçilmiş əsərləri, II cild, Bakı, ADPU, 2008, 412 s.
5. Z.Xəlil. Seçilmiş əsərləri, II cild, Bakı, ADPU, 2008, 412s.
6.Xəlil. Seçilmiş əsərləri, 3-cü cild, Bakı, ADPU, 2008, 404 s.
7.Sultan Ə. Əjdahaların sirri,Bakı, "Libra kitab", 2023, 136 s
8.Vəliyeva İ.İ. Bədii ədəbiyyatda üslubi toponimika . fil. e.n alim. dər. al.üçün avtoref. Bakı, 2002, 27 s.

**NERMIN GOJAYEVA**

## FICTIONAL TOPONYMS IN CHILDREN'S LITERATURE OF THE INDEPENDENCE PERIOD

## ABSTRACT

The Azerbaijani literature of the independence period is characterized as an important stage of renewal in terms of ideology and content, genre, and style. This process has also been reflected in children's literature, creating favorable conditions for the promotion of national and moral values, free thinking, and creative imagination. In particular, against the background of the expansion of linguistic and stylistic possibilities and the strengthening of imagery in literary texts, the use of onomastic units, including fictional toponyms, attracts special attention. In children's literature, fictional toponyms function not only as means of indicating place but also as significant artistic elements that enhance the ideological and aesthetic load of the text and enrich the world of fantasy. Through such toponyms, authors develop children's imagination and encourage them to think freely between real and unreal worlds. The article aims to investigate the semantic, functional, and stylistic features of fictional toponyms in Azerbaijani children's literature of the independence period.

Based on selected literary examples, the study scientifically analyzes the ideological and aesthetic functions performed by fictional toponyms in texts intended for children.

***Keywords:*** *Independence period, children's literature, literary text, fictional toponyms, artistic imagination.*

## ВЫМЫШЛЕННЫЕ ТОПОНИМЫ В ДЕТСКОЙ ЛИТЕРАТУРЕ ПЕРИОДА НЕЗАВИСИМОСТИ

## АННОТАЦИЯ

Азербайджанская литература периода независимости характеризуется как важный этап обновления с точки зрения идейно-содержательного наполнения, жанрового и стилевого разнообразия. Данный процесс нашёл своё отражение и в детской литературе, создав благоприятные условия для выдвижения на первый план национально-нравственных ценностей, свободного мышления и творческого воображения. В частности, на фоне расширения языковых и стилистических возможностей и усиления образности в художественных текстах особое внимание привлекает использование ономастических единиц, в том числе вымышленных топонимов. В детской литературе вымышленные топонимы выступают не только как средства обозначения пространства, но и как важные художественные элементы, усиливающие идейно-эстетическую нагрузку текста и обогащающие мир фантазии. Посредством таких топонимов авторы развивают воображение детей и побуждают их к свободному мышлению между реальным и нереальным мирами. Целью статьи является исследование семантических, функциональных и стилистических особенностей вымышленных топонимов в азербайджанской детской литературе периода независимости. На основе отобранных художественных примеров в статье с научной точки зрения анализируются идейно-эстетические функции, выполняемые вымышленными топонимами в текстах, предназначенных для детей.

***Ключевые слова:*** *период независимости, детская литература, художественный текст, вымышленные топонимы, художественное воображение.*

**Rəyçi: Fil.ü.f.d.İsmayılzadə Təhminə**